# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi”nin təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 12 ” “ mart ” 2025-ci il

№ 72

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 12 ” mart tarixli
72 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun ƏSASNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğu (bundan sonra - Qoruq) “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamı ilə yaradılmışdır.

Qoruq tarix və mədəniyyət üçün xüsusi əhəmiyyət kəsb edən, Ordubadın Şərq memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən abidələrinin, arxeoloji obyektlərinin və etnoqrafik materiallarının kompleks şəkildə cəmləşdiyi və dövlət tərəfindən mühafizə edilən ərazidir.

1.2. Qoruq Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində fəaliyyət göstərir.

1.3. Qoruq öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını və Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, qüvvədə olan digər normativ hüquqi aktları, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin normativ hüquqi, həmçinin digər aktlarını və bu Əsasnaməni rəhbər tutur.

1.4. Qoruq Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatdır, xəzinə hesabına, Nazirliyin və öz adının həkk olunduğu möhürə, müvafiq ştamplara və blanklara malikdir. Qoruğun öz emblemi ola bilər.

1.5. Qoruq fəaliyyətinə dair yarımillik və illik hesabatı Nazirliyə təqdim edir.

1.6. Qoruğun sərhədləri, mühafizə zonası və ərazisinin xüsusi rejimi “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun sərhədləri, mühafizə zonasının və ərazisinin xüsusi rejiminin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 29 iyun tarixli 323 nömrəli Qərarı ilə müəyyən edilmişdir.

1.7. Qoruğun ərazisində yerləşən tarix-mədəniyyət abidələri, torpaq, su, yerin təki, bitkilər və heyvanat aləmi mövcud qanunvericiliyə əsasən meşə fonduna aid ərazilərdə meşə mühafizəsi və bərpası tədbirləri istisna olmaqla, təsərrüfat

istifadəsindən və mülki dövriyyədən tamamilə və ya qismən çıxarılır və Qoruğun daimi istifadəsinə verilir.

## 2. Qoruğun vəzifələri

2.1. Qoruğun vəzifələri aşağıdakılardır:

2.1.1. Qoruğun ərazisində dövlət nəzarətini həyata keçirmək;

2.1.2. Qoruq sahəsinə aid proqnozlaşdırma və planlaşdırma işlərini təşkil etmək və Qoruğun inkişafını təmin etmək;

2.1.3. Qoruğun idarə edilməsi ilə bağlı müvafiq planlar hazırlamaq və Nazirliklə razılaşdırmaqla həyata keçirmək;

2.1.4. Qoruğun ərazisində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə əməl etmək şərtilə tarix və mədəniyyət abidələrinin qorunması və istifadəsi, elmi tədqiqat, təlim-tərbiyə, turizm və rekreasiya, habelə ənənəvi sənətkarlıq və digər məşğuliyyət növlərinin nümayişi və inkişaf etdirilməsi məqsədləri üçün tədbirlər görmək;

2.1.5. tarix və mədəniyyət abidələrində aparılan konservasiya, inşaat-möhkəmləndirmə, abadlıq, bərpa, rekonstruksiya, regenerasiya işlərinin səviyyəsinin artırılması və onların istifadəyə uyğunlaşdırılması üzrə layihə təkliflərini Nazirliyə təqdim edir. Layihələr Nazirlik tərəfindən təsdiq edildikdən sonra Nazirliyin, Qoruğun və layihə müəllifinin (müəlliflərinin) nəzarəti altında həyata keçirilir;

2.1.6. Qoruğun öz sərhədləri və mühafizə zonası daxilində abidələrin, tikililərin bərpası, təmirinin planlaşdırılması və təşkili üçün Nazirliyə müraciət edir, Nazirlik həmin işlərin həyata keçirilməsinə nəzarət edir, abidələr üçün hər hansı təhlükə yarada bilən təmir işlərinin aparılması ilə əlaqədar təhlükəsizlik tədbirlərini müəyyənləşdirərək müvafiq qaydada işlər görür;

2.1.7. Qoruğun ərazisində yerləşən abidələrin və tikililərin inventarlaşmasını aparır, səlahiyyətləri daxilində Qoruğun pasportunu hazırlayır, qanunvericilikdə nəzərdə tutulmuş qaydada abidələr aşkar edilərsə, onların siyahıya və dövlət qeydiyyatına alınması üçün Nazirliyə müraciət edir;

2.1.8. Qoruğun elmi fondu müddətsiz saxlanılır;

2.1.9. Qoruğun ərazisində turizmin inkişaf etdirilməsini, turist marşrutlarının müəyyən edilməsini və bununla bağlı infrastrukturun yaradılmasını Nazirliklə razılaşdırmaqla təşkil edir;

2.1.10. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin mühafizəsini və toxunulmazlığını təmin edir, onlardan istifadə qaydalarının və Qoruğun mühafizə rejiminin pozulmasının qarşısının alınması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada zəruri tədbirlər görür;

2.1.11. abidələrin elmi, mədəni və tarixi əhəmiyyətini təbliğ edir, sərgilər, fotostendlər, ekskursiyalar, mühazirələr təşkil edir, sənədli və qısametrajlı filmlərin çəkilişi və elmi-kütləvi ədəbiyyatın nəşri üçün müvafiq tədbirlər görür;

2.1.12. Qoruğun ərazisində qanunvericiliyə uyğun olaraq, arxeoloji qazıntı

işlərinin aparılmasını müvafiq qaydada təşkil edir. Qoruğun ərazisində arxeoloji abidələrin qazıntısına və aşkar edilməsinə Azərbaycan Milli Elmlər Akademiyasının icazəsi olduqdan və Nazirlikdə qeydə alındıqdan sonra yol verilir. Arxeoloji qazıntı zamanı Qoruğun ərazisində aşkar olunan tarix və mədəniyyət abidələri Qoruğun fonduna təhvil verilir;

2.1.13. Qoruğun ərazisində baş verə bilən fövqəladə halların qarşısının alınması üçün tədbirlər görür;

2.1.14. elmi tədqiqatların aparılması metodları Qoruğun rejiminin tələblərinə zidd olmamalıdır. Aparılan işlərin nəticəsi olaraq, hazırlanmış elmi təkliflər tətbiq edilə bilər;

2.1.15. Qoruq gəlirindən mövcud qanunvericilik əsasında büdcəyə vergilər ödəyir;

2.1.16. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

## 3. Qoruğun maliyyələşdirilməsi

3.1. Qoruğun maliyyələşdirilmə mənbələri aşağıdakılardır:

3.1.1. Naxçıvan Muxtar Respublikasının büdcəsindən ayrılan vəsait;

3.1.2. əhaliyə göstərilən mədəni və turizm xidmətlərindən, qanunvericilikdə qadağan olunmayan digər fəaliyyət növlərindən alınan gəlirlər;

3.1.3. dövlət, ictimai və digər təşkilatlardan, müqavilə əsasında keçirilən tədbirlərdən alınan gəlirlər;

3.1.4. hüquqi və fiziki şəxslərin verdikləri xeyriyyə vəsaitləri və ianələr;

3.1.5. qanunvericilik aktları ilə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlər.

## 4. Qoruğun hüquq və məqsədləri

4.1. Qoruğun əsas hüquq və məqsədləri aşağıdakılardır:

4.1.1. Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrini, təbii landşaftı qoruyub saxlamaq;

4.1.2. Qoruğun ərazisində Nazirliyin razılığı olmadan görülən hər hansı abadlıq, bərpa, rekonstruksiya, regenerasiya və təmir-tikinti işlərinin aparılmasına qadağa qoyur;

4.1.3. Qoruğun ərazisində və ya mühafizə zonasında yerləşən dövlət (bələdiyyə) mülkiyyətində olan tarix və mədəniyyət abidələrinin istifadəsinin, o cümlədən icarəyə verilməsinin mövcud qanunvericiliyə uyğunlaşdırılmasını təmin edir;

4.1.4. Qoruğun ərazisində və ya mühafizə zonasında yerləşən abidələr üçün hər hansı təhlükə yaratmayan təmir-tikinti və inşaat işlərinin görülməsi Nazirliyin razılığı ilə həyata keçirilir;

4.1.5. Qoruğun ərazisində abidələrin mühafizəsi və istifadəsi zamanı baş vermiş qanunazidd halların aradan qaldırılması üçün müvafiq tədbirlər görür;

4.1.6. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb edir;

4.1.7. Qoruğun ərazisində mədəni-kütləvi tədbirlərin keçirilməsində, müvəqqəti və daimi xidmətlər göstərən obyektlərin yaradılmasında, özəl və dövlət qurumları ilə müqavilə əsasında birgə fəaliyyətdə iştirak edir, müxtəlif növ pullu xidmətlər göstərməklə qanunvericiliyə zidd olmayan gəlir əldə edir;

4.1.8. qanunvericiliklə müəyyən edilmiş qaydada Qoruğa aid buklet, açıqca və digər nəşrlər buraxır, internet saytı yaradır;

4.1.9. Qoruğun ərazisində kütləvi tədbirlərin, konfrans və seminarların keçirilməsini təşkil edir.

4.2. Qoruq müəyyən olunmuş qaydada elmi tədqiqatlar, mədəni-maarif, tədris tədbirlərinin təşkil edilməsi məqsədilə Elmi Şura yarada bilər. Şuranın tərkibi Qoruğun təklifi ilə Nazirlik tərəfindən təsdiq edilir.

## 5. Qoruğun fəaliyyətinin təşkili

5.1. Qoruğun fəaliyyətinə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir.

5.2. Qoruğun direktoru Qoruğa həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Qoruğun baş fond mühafizi Qoruğun direktorunun təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. Qoruğun digər işçiləri isə birbaşa Qoruğun direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunurlar.

5.4. Direktor:

5.4.1. Qoruğu bütün idarə, təşkilat və müəssisələrdə etibarnaməsiz təmsil edir;

5.4.2. Qoruğun işçiləri arasında vəzifə bölgüsünü aparır, onları həvəsləndirir, intizam məsuliyyətinə cəlb edir, əmək və icra intizamına nəzarət edir və onlara etibarnamələr verir;

5.4.3. öz səlahiyyətləri daxilində əmr və sərəncamlar verir;

5.4.4. Qoruğun illik və perspektiv iş planlarının tərtib olunmasını təmin edir, elmi tədqiqat işlərinin yerinə yetirilməsinə və Qoruq ərazisində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən tətbiq olunmuş xüsusi rejimə əməl edilməsi üçün tədbirlər görür;

5.4.5. sahə üzrə mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün təkliflər verir;

5.4.6. müəyyən olunmuş qaydada ştat cədvəlinin təsdiq edilməsi və dəyişdirilməsi haqqında Nazirliyə təkliflər verir.

5.5. Qoruğun baş fond mühafizi:

5.5.1. inventar kitabına əsasən Qoruğun ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin mühafizəsinə cavabdehdir;

5.5.2. Qoruğun fondlarının mühafizəsini və fam uçotunu təmin edir, eksponatların elmi təsvirinin verilməsi (pasportlaşdırılması), həmçinin bərpaya ehtiyacı

olan eksponatların aşkar edilməsi və bərpası işini təşkil edir. Qoruğun fondunun mühafizəsi, uçotu və ərazidə bərpa işlərinin təkmilləşdirilməsi üzrə tədbirlər hazırlayır. Fond xəzinəsi işlərinin asanlaşdırılması məqsədilə tədbirlər görür. Kolleksiya kataloqlarını, fond materiallarının icmalını, metodik tövsiyələri nəşrə hazırlayır;

5.5.3. elmi tədqiqat işi aparır, müşavirə, konfrans və seminarlarda mühazirə və məruzələrlə çıxış edir, məsləhətlər verir, müəyyən olunmuş forma üzrə uçot və hesabat işlərini təşkil edir;

5.5.4. Qoruğun abidələrinin toxunulmazlığının təmin edilməsi üçün ərazisində müxtəlif təsvirlərin və yazıların yerləşdirilməsinə, razılıq olmadan Qoruğun sərhədləri daxilində abidələrdən istifadə olunmasına, ərazidə od qalanmasına, müxtəlif məclislərin keçirilməsinə yol vermir, üzərində tarixi yazılar, ornament, relyef və qayaüstü təsvirlər olan daşlara xüsusi diqqət yetirir, ərazidə olan dəyişiklik, dağıntı və söküntülər, habelə ondan qanunsuz istifadə halları barədə rəhbərliyə və müvafiq orqanlara məlumat verir, Qoruğun mühafizə zonasında müxtəlif tikinti, torpaq və kənd təsərrüfatı, icazəsiz arxeoloji qazıntı işlərinin aparılmasına, ərazidə yeraltı, yerüstü partlayış işlərinə, abidələrin icazəsiz tədqiqinə, onlara məxsus bədii təsvirlərin surətlərinin çıxarılmasına icazə vermir.

5.6. Qoruğun əməkdaşları Azərbaycan Respublikasının ərazisində tarix və mədəniyyət abidələrinin mühafizəsinə və istifadəsinə dair keçirilən seminar və yığıncaqlarda iştirak edə, mədəniyyət işçilərinin təkmilləşdirilməsi kurslarında təhsil və təcrübə mübadiləsi keçə bilərlər.

5.7. Qoruğun strukturu və işçilərinin say həddi qanunvericiliklə müəyyən olunmuş qaydada Nazirlik tərəfindən təsdiq edilir.

## 6. Qoruğun fəaliyyətinin dayandırılması, ləğvi və yenidən təşkili

Qoruğun fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dayandırıla, ləğv edilə və ya yenidən təşkil edilə bilər.